# "30 ildən sonra Qarabağda alovlanan ocaq"

**Şəmkirdə rayon icra hakimiyyətinin, təhsil və mədəniyyət sektorlarının birgə təşkilatçılığı ilə "30 ildən sonra Qarabağda alovlanan ocaq" adlı tədbir keçirilmişdir.**

Rayon icra hakimiyyətinin başçısı Rəşad Tağıyev çıxış edərək diqqətə çatdırmışdır ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi heç də təsadüfi deyil: "Prezident İlham Əliyevin bununla bağlı imzaladığı sərəncamda da qeyd olunduğu kimi, müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüz illərboyu Azərbaycan xalqının ən böyük arzusu olub. Nəhayət, 90-cı illərin əvvəllərində böyük bir fəlakətlə üz-üzə qalan, vətəndaş müharibəsi astanasında olan bir dövlətdən siyasi, iqtisadi və mənəvi inkişaf edən müstəqil və suveren bir dövlət qurmağı bacardıq. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş strategiyanın reallaşması nəticəsində biz güclü və dünyada sözü keçən dövlətlərdən birini qura bildik".

O da diqqətə çatdırılmışdır ki, 44 günlük Vətən müharibəsində və uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi bütöv və suveren Azərbaycanda bərqərar olmuşdur. Konstitusiyamızın təməl prinsiplərindən biri olan ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunmasının 5-ci ildönümünün və Konstitusiyanın qəbul edilməsinin 30-cu ildönümü ilə üst-üstə düşməsi 2025-ci ilin ən yeni tariximizə "Konstitusiya və Suverenlik İli" kimi daxil olmasına əsas vermişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaqdır. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik".

Tədbirin sonunda müstəqil və suveren Azərbaycanın 30 illik inkişafından bəhs edən sənədli film nümayiş olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 mart (№ 60).- S.14